Səh. 2 Nənəmin qorxuları – Afiq Muxtaroğlu
Səh. 5 Gözəllik qurban tələb edir və ya psixoloji zərbə – Esmira Ələkbərli
Səh. 5 Məşhur iş – Aytən Fətullayeva
Səh. 6 Rəfdə tozlanan kitablar – Validə Fətullayeva
Səh. 3 Başqa dildə danışan başqalaşır – Hacı Bəkiroğlu
Səh. 4 ŞALVA TABATADZE: "İMTAHANLARIN MÖVCUD SİSTEMİ MƏKTƏBİ BİRBAŞA ÖLDÜRÜR... REPETİTORLAR OLMASA DAHA PİS NƏTİCƏMİZ OLARDI"
Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR
2023-CÜ İL
№ 018 (189)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## İRAKLİ QARİBAŞVİLİ NYU-YORKDA RƏCƏB TAYYİB ƏRDOĞANLA GÖRÜŞÜB

Nyu-Yorkda BMT-nin 78-ci Baş Assambleyasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Söhbət zamanı Prezident Rəcəb Tayyib Ərdoğan əsrin fəlakətindən sonra Gürcüstanın Türkiyəyə verdiyi dəstəyə görə bir daha təşəkkür edib və iki ölkə arasında ticarət həcminin 3 milyard dollardan 5 milyard dollara qədər yüksələ biləcəyini deyib.



Orta dəhlizin həyata keçirilməsinin əhəmiyyətindən danışan Türkiyə Prezidenti Bakı-Tbilisi-Qars dəmir yolunun tez bir zamanda daha işlək vəziyyətə gətirilməsinin gözlənildiyini bildirib. Prezident Ərdoğan həmçinin Gürcüstandakı FETÖ məktəblərinin bağlanmasının və aktivlərinin dondurulmasının önəmini vurğulayıb və Gürcüstan rəhbərliyinin bununla bağlı atdığı addımları təqdir edib.

## SUXUMİNİN İŞĞALINDAN 30 İL ÖTÜR

Sentyabrın 27-də Gürcüstanın dövlət və hökumət qurumlarının inzibati binalarında Suxuminin işğalının 30-cu ildönümü və Abxaziya müharibəsində həlak olanların xatirəsinin yad edilməsi münasibətilə dövlət bayrağı endirilib.




Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ildönümü ilə əlaqədar bəyan edib ki, işğal altındakı regionların azad edilməsi və ölkənin birləşdirilməsi Gürcüstan dövlətinin və cəmiyyətinin qarşısında əsas problem olaraq qalır.



Hökumət başçısı Gürcüstanın münaqişənin sülh yolu ilə həllinə sadiq olmasını qeyd edib.

## BAŞ NAZİR: Aİ-NİN GÜRCÜSTANIN NAMİZƏD STATUSU İLƏ BAĞLI NÖVBƏTİ NEQATİV QƏRARI ÖLKƏMİZƏ VƏ XALQIMIZA QARŞI TƏHQİR OLAR



Avropa İttifaqının (Aİ) Gürcüstanın namizəd statusu ilə bağlı növbəti neqativ qərarı ölkəmizə və xalqımıza qarşı təhqir olar. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili jurnalistlərə açıqlamasında bildirib.

Hökumət başçısı belə bir qərarın Gürcüstan üçün qəbuledilməz olduğunu, ölkənin islahatlar sahəsində əldə etdiyi tərəqqi ilə namizəd statusuna layiq olduğunu deyib.

"Mən Şarl Mişel və bir neçə Avropa lideri ilə görüşdə öz mesajımı açıq şəkildə çatdırmışam. Bu sadə, aydın və birmənalı mesajdır: həyata keçirdiyi öhdəlikləri, əldə etdiyi tərəqqini və üzləşdiyi çətin geosiyasi konteksti nəzərə alsaq Gürcüstan namizəd statusuna layiqdir. Mən bunu onlara aydın şəkildə bildirmişəm. Əks təqdirdə, bu Aİ-nin daha bir strateji səhvi, ölkəmizə və xalqımıza qarşı ədalətsiz münasibəti olardı".

Baş nazir Gürcüstanın əldə etdiyi nailiyyətlər baxımından Moldova və Ukraynadan irəlidə olduğunu bir daha vurğulayıb.

"Bizim avropalı dostlarımızın mənfi qərar verməsi üçün heç bir səbəb yoxdur", – Qaribaşvili deyib.

## GÜRCÜSTANIN VƏ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ GÖRÜŞÜBLƏR

Gürcüstan Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, xarici işlər naziri İlia Darçiaşvili türkiyəli həmkarı Hakan Fidanla görüşüb.



Bildirilib ki, BMT Baş Assambleyasının 78-ci sessiyası çərçivəsində baş tutmuş görüşdə iki ölkə arasındakı strateji tərəfdaşlıq məsələləri nəzərdən keçirilib, tərəflər regiondakı vəziyyətə xüsusi diqqət yetiriblər.

"Nazirlər bir daha regionun davamlı və sabit inkişafı üçün sülhün təmin edilməsinin vacibliyini vurğulayıblar və bu prosesdə həm Gürcüstanın, həm də Türkiyənin xüsusi rolunu qeyd ediblər", - məlumatda bildirilib.



# NƏNƏMİN QORXULARI

Afiq Muxtaroğlu

Nənəm üstümdə yarpaq kimi əsirdi, məni hər şeydən qorumağa çalışırdı. Bu hər şey də bir deyildi, beş deyildi. Nənəm məni havadan qoruyurdu. Havanın soyuğundan, istisindən qorumaq istəyirdi. Mənim soyuqlamağım, istilənməyim nənəmin faciəsi ola bilirdi. Sabahın, axşamın düşməsiylə, günün-ayın dəyişməsiylə havalar da dəyişirdi. Nənəm də məni bu dəyişkənliyə uyğunlaşdırırdı. Soyuq oldumu gərək başı zehli örmə corabımı, boğazlı istiliyimi geyinəydim. Qulaqlı papağım, boğazlığım, çəkməm, əlliyim də öz yerində. Bir az havanın qızmasına bənd idi ki, əynimdəki paltarları pırtadıb çıxaraydı.

Nənəm məni oddan qoruyurdu. Düşünürdü ki, yanıb külə dönərəm, qıvrım saçlarımdan, maviyə çalan gözlərimdən bir şey qalmaz. Nənəm bu fikri ağlından keçirdiyinə görə də özünü qınayırdı. “Ağlımdan keçənlər dağlara-daşlara getsin, iraq olsun, qulaqlara qurğuşun”, – deməkdən özünü saxlaya bilmirdi.

Nənəm məni sudan qoruyurdu. Ola bilsin ki, nənəm mənim suda batmağım səhnəsini beynində yüz yol canlandırmış, həmin səhnəni özündən uzaqlaşdırmaq üçün nə zülmlər çəkmişdir. Əli hər yerdən üzüləndə: – “Allah kərimdir”, – deyib, məni Allahın ətəyinə tullamışdı.

Olmayan iş ha deyildi, nənəm o qədər odda yanan, suda batan görmüşdü, görməsə də az eşitməmişdi.

Nənəmin işi-gücü məni qorumaq idi. Elə bil məni qorumaqdan savayı əlindən başqa bir iş gəlmirdi, ayrı işi-gücü yox idi.

Dedimmi, yoxsa unutdummu?

Nənəm məni hər şeydən, hər kəsdən qoruyurdu. Havadan, sudan qorumağı asan idi. Arşınını xəbər almırdı, heç kimə gənəşmədən edirdi edəcəklərini.

Məni adamlardan qorumağı asan iş deyildi. Nədən ki, məni kimdənsə qoruyarkən, istər-istəməz, nənəm onun xətrinə dəyməli olurdu. Kimsə məni öpmək istəsəydi, nənəm bir yol tapıb məni onun caynağından saldırırdı. “Atam-anam, öpdürməklə arası yoxdur”, – deyib məsələni yoluna qoyurdu. Ən çox da qadınlar məni öpmək istəyirdilər. Öpərkən də qızımı sənə verəcəm, nəvəmi sənə verəcəm deməyi unutmurdular. Düzü, öpülməkdən çox onların bu sözlərini eşitmək xoşuma gəlirdi. Amma nə edə bilərdim, yüz mənim xoşuma gəlsin, nənəm mənim adımla öz qərarını verib, məni o qadınlardan gələ biləcək hər şeydən – xəstəlikdən, yaman gözdən, tər qoxusundan qoruyurdu. Qadınlarsa nənəmə xoş gəlsin deyəmi, yoxsa adət-ənənənin tələbiyləmi məni öpüb, əzizləmək istəyirdilər. Daha orasını deyə bilməyəcəm.

Nənəm yaxın-uzaq, doğma-yad – kiminsə mənim əşyalarıma toxunmasını heç cür qəbul edə bilmirdi. Deyək ki, mənim paltarımı kiminsə geyinməsinə razı ola bilməzdi. Böyüdükcə daralan ayaqqabılarımı, paltarlarımı yuyub təmizləmək, onları harasa yığıb saxlamaq nənəm üçün az qala müqəddəs bir vəzifəyə çevrilmişdi. Nənəm onları kiminsə uşağına verməyi ağlının ucundan da keçirmirdi. Bunu da nənəmin qıyımsızlığına yazmayın. Elə düşünməyin ki, nənəm xəsis adam idi. Nədən ki, nənəm hoya yetən, əltutan idi, qarşılıq gözləmədən kiminsə işinə yaramaq, olanına yox demək kimi xasiyyəti yox idi. İş gəlib mənə çatanda nənəm bir başqa adama çevrilirdi, elədikləri yerdən göyə qədər dəyişirdi.

Mənim qabımı-qaşığımı ayrı tutmaq da nənəmin vəzifəsinə daxil idi. Allah eləməsin, kimsə, lap elə öz qardaş-bacım, qohum uşaqlarından biri mənim fincanımdan su içərdisə, nənəm onların gününü göy əskiyə bükər, yüz sözün başına çıxardı. Həmin fincan dəfələrlə sürtülər, dəfələrlə suya çəkilib təmizə çıxarılardı. Nənəmin düşüncəsinə görə, öz bacı-qardaşım belə məndən ötrü yad idilər. Onlardan mənə pis nəyinsə bulaşacağı qorxusu nənəmi ehtiyatlı davranmağa vadar edirdi. Allah eləməmiş, mənə nəsə olsaydı, sözgəlişi, gəzənlərdən-zaddan dəysəydi, ağzımın-burnumun suyu bir-birinə qarışsaydı nənəm bunu mənə kiminsə yoluxdurduğuna özünü inandıra bilirdi və üstəlik bunda özünü günahkar hesab edirdi. Bütün günü özünü danlamaqla, özünə qarğış eləməklə keçirər, mənə yaxşı göz-qulaq olmadığını təkrarlamaqdan yorulmazdı.

Bütün günü mənim hara getdiyim, haradan gəldiyim, nə yediyim, nə içdiyim, kimlə oturduğum, kimlə durduğum, acmı qaldığım, susuzmu qaldığım kimi suallara cavab axtarması nənəmi əldən salırdı, nənəmə əzab verirdi. Nənəm günü ağın qızı da mənimlə bağlı bu zülmlərə o qədər alışmışdı ki, sanki zülm çəkmədən dura bilmirdi.

## TƏHSİL HAQQINI ÖDƏYƏ BİLMƏYƏN TƏLƏBƏLƏRİN BORCLARI SİLİNİR



Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin qərarı ilə təhsil haqqını ödəyə bilmədiyinə görə statusu dayandırılmış tələbələrin mövcud borcları silinəcək. Bu haqda Baş nazir hökumətin iclasında məlumat verib.

Qərar 30 000-ə yaxın tələbəyə aiddir. Borcun ümumi həcmi isə 40 milyon lariyə yaxındır.

“Statusu dayandırılmış tələbələrin məsələsini soruşdum və təhsil nazirindən ətraflı məlumat aldım. Təhsil haqqını ödəyə bilmədiyi üçün təxminən 30 minə yaxın tələbənin statusu dayandırılıb. Mənim qərarımla statusu dayandırılmış bütün tələbələrin borcu sıfırlanacaq və onlar statuslarını bərpa edib təhsillərinə davam edə biləcəklər. 40 milyon lari dəyərində borc var.

Təhsil və maliyyə nazirlərimizə müraciət edirəm ki, əlaqə yaratsınlar və təcili surətdə bu məsələ həll olunsun. Tələbələrə yenidən təhsillərinə davam etmək imkanının verilməsi çox mühümdür”, – deyə İrakli Qaribaşvili bildirib.

## ÖTƏN İL 35 MİNƏ YAXIN GÜRCÜSTAN VƏTƏNDAŞI Aİ ÖLKƏLƏRİNDƏ YAŞAYIŞ HÜQUQU ALIB



Ötən il 35 minə yaxın Gürcüstan vətəndaşı Avropa İttifaqı (Aİ) ölkələrində yaşayış hüququ alıb. Bu da 2021-ci ilin göstəricisindən 14 min nəfər çoxdur.

Yerli mətbuatın yaydığı məlumata əsasən, Gürcüstan vətəndaşlarına ən çox yaşamaq hüququ verən Polşa olub (15 569 nəfər). İkinci yerdə İtaliya (8 698 nəfər), üçüncü yerdə isə Almaniya gəlir (2 813 nəfər).

Gürcüstan vətəndaşlarına ən az yaşayış hüququ verən ölkələr sırasında Lüksemburq (1 nəfər), Rumıniya (3 nəfər), Kipr və Sloveniyadır.

İqtisadçı ekspertlərin fikrincə, Gürcüstan vətəndaşlarının Avropa İttifaqı ölkələrinə getməsi və orada yaşayış hüququ alması ilk baxışda adi və zərərsiz görünsə də, əslində bu, çox təhlükəlidir. Gürcüstan vətəndaşlarının xarici ölkələrə üz tutması tendensiyası ilbəil artır. Göstərilən rəqəmlər yalnız yaşayış hüququ alanları göstərir. Qeyri-qanuni gedənlər və yaşayış hüququ ala bilməyənlərin sayı isə bir neçə dəfə çoxdur. Bu axın həm işçi qüvvəsinin azalmasına, həm də əhali artımına mənfi təsir göstərəcək.

## RƏYİ SORUŞULANLARIN 62 %-İ PREZİDENTİN İMPİÇMENTİNİN ƏLEYHİNƏDİR



Gürcüstan əhalisinin 62 %-i Prezidentin impiçmentinin əleyhinədir. Bu barədə “Edison Research” tərəfindən həyata keçirilmiş ictimai rəy sorğusunun nəticəsində qeyd edilib. Bildirilib ki, sorğu iştirakçılarının 62 %-i Prezident Salome Zurabişvilinin impiçmentinin əleyhinə, 38 %-i isə lehinə olduğunu bildirib.

Ümumilikdə yaşı 18-dən çox olan 1500 nəfərin iştirak etdiyi soğru müxalifyönümlü “Formula” telekanalının sifarişi əsasında həyata keçirilib.

Qeyd edək ki, hakim “Gürcü Arzusu” partiyası sentyabrın əvvəlində Prezident Salome Zurabişvilinin Konstitusiyanı pozmasını əsas gətirərək onun impiçmenti proseduruna başlayıb. İş artıq ölkənin Konstitusiya Məhkəməsinə təqdim edilib.

Məhkəmənin bəyanatına əsasən, Prezidentin impiçmenti işinə Konstitusiya Məhkəməsi oktyabrın 3-də baxacaq. Təqdimat müəlliflərinin və Gürcüstan Prezidentinin iştirakı ilə şifahi dinləmə keçiriləcək.

## TÜRKİYƏ VƏ GÜRCÜSTAN PARLAMENT SƏDRLƏRİ GÖRÜŞ KEÇİRİBLƏR



Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ilə görüşüb. Bu barədə Gürcüstan Parlamentinin mətbuat xidməti məlumat yayıb.

Məlumata əsasən, görüşdə hər iki ölkənin parlamentləri arasında əməkdaşlığın perspektivləri diqqət mərkəzində olub.

Söhbət zamanı iki ölkə arasında strateji tərəfdaşlıq məsələləri də müzakirə olunub, həmçinin müxtəlif sahələrdə əməkdaşlıqdan danışılıb.

Türkiyə və Gürcüstan parlamentlərinin sədrləri Cənubi Qafqaz regionunda baş verən hadisələri müzakirə ediblər. Bu baxımdan parlament diplomatiyasının əhəmiyyətini vurğulayıblar.

## MARNEULİDƏ YENİ "ROBOTİK" KOMPÜTER OTAĞININ AÇILIŞI OLUB



Marneuli şəhərində fəaliyyət göstərən "Azərbaycan Evi"ndə yeni "Robotik" kompüter otağı istifadəyə verilib.

Açılış mərasimində Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirləri Faiq Quliyev və Ali Kaan Orbay, Azərbaycan Respublikası Diaspora Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev, TİKA-nın vitse-prezidenti Ümit Naci Yorulmaz, Marneuli bələdiyyəsinin meri Kənan Ömərov, TİKA-nın regional rəhbəri Tuğba Özütok və digər şəxslər iştirak ediblər.

Tədbir iştirakçıları "Robotik" kompüter otağına baxış keçirib, yaradılan şəraitlə yaxından tanış olublar.

Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Murad Muradov bildirib ki, "Robotik" kompüter otağı TİKA-nın maliyyə yardımı ilə tam texnoloji avadanlıqla təmin olunub. Burada hər mərhələdə 50-dən çox gənc informasiya kommunikasiya texnologiyaları üzrə biliklər əldə edəcəklər.

Əkrəm Abdullayev dünyanın hər bir ölkəsində Azərbaycan və türk diaspor təşkilatlarının Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını əldə rəhbər tutaraq birgə fəaliyyət göstərdiklərini, Gürcüstanda belə bir otağın açılmasını qardaşlığımızın bariz nümunəsi olduğunu bildirib.

Faiq Quliyev XXI əsrin kompüter əsri olduğunu və yeniyetmələrin bu sahədə yeni biliklər əldə etmələrinin vacib olduğunu qeyd edib. Diplomat yardıma görə qardaş Türkiyə dövlətinə və TİKA rəhbərliyinə təşəkkür edib.

Qonaqlar "Azərbaycan Evi"nin və İnteqrasiya Mərkəzinin rəhbərliyinə fəaliyyətlərində uğurlar arzulayıb, yaradılan şəraitə görə TİKA rəhbərliyinə minnətdarlıq ediblər.

## ZAZA VAŞAKMADZE: GÜRCÜSTAN MÜSƏLMANLARININ ƏLİNDƏN ALINMIŞ 234 MƏSCİD ONLARIN ÖZLƏRİNƏ QAYTARILIB



Sovet dövründə Gürcüstan müsəlmanlarının əlindən alınmış 234 məscid müstəqillik illərində onların özlərinə qaytarılıb. Bunu Tbilisidə Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin (SARI) birgə təşkilatçılığı ilə keçirilən "Dinlərarası dialoqda dövlətin rolu" adlı beynəlxalq konfransda SARI sədri Zaza Vaşakmadze deyib. O, bildirib ki, 2014-cü ildən bəri SARI tərəfindən Gürcüstandakı pravoslav kilsəsi istisna olmaqla dini icmaların inkişafına 14 milyon dollar ayrılıb.

O, Gürcüstanda müxtəlif dinlərin və məzhəblərin nümayəndələrinin tarixən sülh içində yaşadığını, dövlətin ölkədəki tolerantlığın gücləndirilməsi istiqamətində konkret addımlar atdığını vurğulayıb:

"Gürcüstan tarixən çoxmillətli, çox dinli xristian ölkəsidir, biz bir sıra mədəniyyətə və dinə ev sahibliyi edirik. Bu vaxtadək burada heç bir qarşıdurma baş verməyib. Gürcüstanda hakimiyyət dinlərarası dialoqun əsas zəmanətçisidir".

Zaza Vaşakmadze Gürcüstandakı kilsələrin 96 %-nin pravoslav dini icmasına məxsus olduğunu bildirib.

O, müasir dövrdə dini qarşıdurmaların artdığını, bu səbəbdən dövlətin dinlərarası dialoqun təşkilində önəmli rol oynaya biləcəyini vurğulayıb.

O qeyd edib ki, müsəlmanlar Gürcüstanda dövlət quruculuğunda iştirak edirlər:

"Bizim vətəndaşlarımız etnik və mədəni mənsubiyyətindən asılı olmayaraq bərabərdir və dövlət quruculuğunda birlikdə iştirak edirlər. Müasir dövrün əsas problemlərindən biri dini qarşıdurmalardır və bu, dövlətin rolunu bu sahədə daha da artırır, dövlət dinlərarası və mədəniyyətlərarası dialoqda böyük rol oynaya bilər".

Z.Vaşakmadze qeyd edib ki, Gürcüstanda hakimiyyət dini azlıqların gürcü xalqı ilə assimilyasiya olmadan inkişafına dəstək verir. O, Azərbaycan və Gürcüstan arasında dini sahədə əlaqələrin daha da yüksək səviyyəyə qaldırılacağını vurğulayıb.

## BAŞQA DİLDƏ DANIŞAN BAŞQALAŞIR



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Dil insanlar arasındakı əlaqəni təmin edən ən inkişaf etmiş bildiriş vasitəsidir. Dil dilçilər tərəfindən bir cəmiyyəti meydana gətirən fərdlərin düşüncə və duyğularının, o cəmiyyətdə səs və məna baxımından etibarlı ortaq sənədlər və qaydalardan faydalanılaraq başqalarına ötürülməsini təmin edən çox istiqamətli və inkişaf etmiş bir sistem vasitəsi olaraq təyin olunmuşdur.

Dil insanın iç dünyası ilə xarici dünyasını bir-birinə bağlayan ən əhəmiyyətli vasitədir; nəsildən nəslə köçürülə bilən və cəmiyyətin müxtəlif xüsusiyyətlərini əks etdirən ictimai bir qurum olmaqla birlikdə mədəniyyətin qoruyucusu və daşıyıcısı olaraq təməl varlıqdır.

Prof. Dr. Muharrəm Ergin "dil insanlar arasındakı ünsiyyəti təmin edən təbii bir vasitə; öz qanunları içində yaşayan və inkişaf edən canlı bir varlıq; milləti birləşdirən, qoruyan və onun ortaq malı olan ictimai bir müəssisə; səslərdən hörülmüş böyük quruluş; təməli bilinməyən zamanlarda atılmış bir gizli andlaşmalar və müqavilələr sistemidir" deyə tərif edib.

Buradan da anlaşılır ki, dil şəxsiyyətin, ənənənin, dinin və mədəniyyətin daşıyıcısıdır. Bizi biz edən amildir. Bu günün gənclərində isə biz bunun tam əksini görürük. Çünki gənclərimiz bu gün ana dilimizə biganə yanaşırlar. Bir çox kəliməni və ya sözü hər hansısa bir xarici dildə ifadə etməyə çalışırlar və bunu da inkişaf olaraq xarakterizə edirlər. Guya ki, bu cür danışmayanlar geridə qalmışlardır. Daha düşünmürlər ki, başqasının sözləriylə özümüzü inşa edə bilmərik. Kimin sözləriylə danışırsansa onun sözləriylə düşünməyə başlayarsan. Bizə aid olmayan söz və ya anlayışlarla yerli düşüncə reallaşmaz. Əgər bu cür davam edəriksə bir müddət sonra özümüzə yad olmağa başlayarıq. Yadlaşmaq isə mənliyindən, şəxsiyyətindən, mədəniyyətindən və bir çox digər dəyərlərindən uzaqlaşmaq deməkdir. Keçmişlə bağımız qopduqda şəxsiyyətdən danışmaq da qeyri-mümkün olur.

Dəyişmək dil ilə başlayır, sonra həyatın tamamına sirayət edir. Milli və mənəvi dəyərlərə biganə yanaşılır və zamanla hər şey normal gəlməyə başlayır. Bu normallaşma keçmişlə bağımızı qoparır. O bağ qopduğunda bizi biz edən milli və mənəvi dəyərlərlə bağımızı da qoparmış oluruq. Bu baxımdan millətlərin qədərləri dilləriylə birbaşa mütənasibdir. Çünki başqalarının dillərində danışmağa başlayanlar getdikcə onların mədəniyyətini də mənimsəməyə başlayırlar. Bu hal isə artıq cəmiyyətimizdə mövcuddur.

Elə bu mövzuda yazmağa məni məcbur edən duyğu da bu yaxınlarda yad mədəniyyəti mənimsəmiş, öz dilində kəkələyə-kəkələyə danışan, oğlanın sırğa taxması, saç uzatması, qızın isə çox böyük iştah və zövqlə siqaret çəkməsidir. Bəli, kimlərə görəsə bu normal hal olaraq görünə bilər, ancaq mənim üçün mentalitet də əhəmiyyətlidir. Bəlkə də kimlərsə bu fikrə görə məni geri düşüncəli olaraq da adlandıra bilər, olsun, Teymur əmi demiş, əmi canı, qəti qorxusu yoxdur.

Bu mövzu bizim üçün bir də ona görə əhəmiyyətlidir ki, Sovetlər Birliyi kimi qəddar bir rejimin soyadlarımıza kimi müdaxiləsinə rəğmən dədələrimiz dilimizi qoruyub gətiriblər, ancaq bizlər rahatçılığa qovuşanda öz milli dəyərlərimizdən imtina etməyə başlayırıq.

Dili yaşayan və yaşadan millətlər həyatlarını davam etdirmiş, dili ölmüş cəmiyyətlərin varlığı isə sona çatmışdır.

# ŞALVA TABATADZE: “İMTAHANLARIN MÖVCUD SİSTEMİ MƏKTƏBİ BIRBAŞA ÖLDÜRÜR... REPETİTORLAR OLMASA DAHA PİS NƏTİCƏMİZ OLARDI”



*2023-cü ilin vahid milli imtahanları nəticəsində 34 800-dən artıq abituriyent tələbə adını qazandı. Bu, ötən illə müqayisədə 2 700 nəfər artıqdır və təbiidir. Çünki bu il abituriyentlərin sayı çox idi, ancaq onlardan yalnız 6 540 nəfəri dövlət qrantı qazana bilib.*

*Eyni zamanda təbiət elmlərində minimum keçid balını aşa bilməyən abituriyentlərin sayı da yüksəkdir. Aplikantların 30,95 %-i fizika, 19,53 %-i kimya, 14,71 %-i isə biologiya imtahanından kəsilib.*

*Ən yüksək bal 649 bal olmaqla ingilis dilində qeydə alınıb. İkinci yerdə gürcü dili və ədəbiyyatı durur. Ən yüksək balı 75 aplikant toplayıb.*

*Milli imtahanların nəticələri nəyi göstərir. Bu haqda Mülki İnteqrasiya və Millətlərarası Əlaqələr Mərkəzinin sədri, təhsil üzrə mütəxəssis Şalva Tabatadze “etaloni.ge”yə danışıb. O bildirib ki, tələbə sayının artması ali təhsil müəssisələrinə qəbul olanların ümumi təhsilinin yüksək səviyyədə olmasının göstəricisi deyil.*

**– Cənab Şalva, tələbə sayı hər il artır və bu il də rekord artım var. Bunlar hamısı nəyi göstərir? – Daha çox hazırlanmış gənclərin olduğunu, yoxsa başqa səbəbmi var?**

– Qəbul imtahanları sistemi analiz olunmalıdır – nə dərəcədə dolğundur, fənlərə tələblər nə dərəcədə düzgün bölünüb və bu, ictimaiyyətin, ali təhsilin inkişafına, keyfiyyətli ali təhsil ala biləcək kadrların cəlb olunmasına nə dərəcədə dəstək olur.

Əksər hallarda qəbul və ümumi təhsil sistemini ayırmağa çalışırlar ki, guya məktəblərdə keyfiyyətin inkişafının qayğısına qalmalıyıq və qəbul imtahanarı sistemi sadəcə bəzi şeyləri ölçür. Həqiqətdə isə bu belə deyil. Qəbul imtahanları sistemi məhz məktəb təhsili ilə əlaqədardır və məktəb təhsilimizin necə olduğunu müəyyən edir. Elə sistemimiz var ki, məktəbdə aldığımız bilik, orada keçirdiyimiz zaman, topladığımız təcrübənin ali təhsil müəssisəsinə qəbul olmağımıza heç bir təsiri yoxdur.

Müxtəlif fənlərdə kifayət qədər düşünülməli nəticələr var. Bu mütləq müzakirə olunmalıdır. Çünki qəbul imtahanları sisteminin dəyişdirilməsindən söhbət açmırlar, heç olmasa mövcud sistemdə istiqamətlər düzgün və yaxşı müəyyən edilməlidir ki, bu, şagirdlərə, valideynlərə, müəllimlərə düzgün səmt versin.

**– Bu vahid sistemdə, yəqin ki, məktəbin funksiyasının artırılması əsas olmalıdır... Universitetlər nəyi dəyişə bilərlər?**

– Bəli, məktəbin qəbul imtahanları sistemində öz funksiyası olmalıdır və bu çox mühümdür, ancaq bu islahata gəlib çıxmadıqları birmənalıdır. Müəyyən risklər görürlər və sair, bu isə cəfəngiyyatdır.

Universitetlər onların muxtariyyətinin məhdudlaşdırılmış olmasına baxmayaraq, mövcud qəbul imtahanları sisteminə üstünlük verirlər, çünki çoxsaylı maddi-inzibati problemləri həll edir və tələbələri hazır qəbul edirlər. Bu prosesdə onlara heç bir güc düşmür. İctimaiyyətin böyük qismi də bu prosesi dəstəkləyir və ona görə onu dəyişməkdə çətinlik çəkirlər. Amma məcburi seçilən və qrant verməyə istiqamətlənmiş sistemlərin dəyişdirilməsi mütləqdir. Bu, məhz ali təhsil müəssisəsində öyrənmək üçün lazım olan bilik və bacarıqlara daha çox fokus verəcək.

Bu imtahanları analiz edəndə məlum oldu ki, bütün fokus humanitar və sosial elmlərə edilib. Gürcü və ingilis dilinin məcburi olduğu imtahanlar keçirilir. Abituriyentlər ən yaxşı nəticələri məhz həmin fənlərdən toplayıblar.

Dəqiq və təbiət elmlərində nə baş verir? Ümumi qabiliyyət və onun riyazi hissəsi ləğv edilib, bu gün abituriyentlərin yalnız 38 %-i riyaziyyatı seçir. Təxminən 15 min nəfər riyaziyyat imtahanı verib və bu o deməkdir ki, yalnız həmin 38 %-də riyazi qabiliyyət yoxlanılıb. Riyazi bacarıqlar ali təhsil üçün çox mühümdür, bütün potensial tələbədə yoxlanılmalıdır, çünki o, humanitar, sosial elmlərə qəbul ola bilər, amma tələbənin riyaziyyatdan baza biliyi olmalıdır. Əgər bu biliyi yoxdursa yekunda yaxşı təhsil ala bilməsi və ya yaxşı təhsil şəraitində uğurlu olması mümkün deyil. Biz riyazi bacarıqları yoxlamırıq və yoxladıqlarımızda hansı nəticəmiz var? Həmin 15 mindən 50 %-ə yaxın abituriyentin aşağı və lap aşağı nəticələri var. Yəni minimal kompetesiyaları da yoxdur. Yalnız 7 min orta və ortadan yüksək nəticə var. Bu o deməkdir ki, kim tələbə olursa onların riyazi biliyi və ümumi bacarıqları yoxdur.

**– Təbiət fənlərində də kifayət qədər ağır vəziyyətdir...**

– Bəli, fizika, kimya, biologiyada imtahandan kəsilmənin ən yüksək nəticəsi 20-dən 31 %-ə qədərdir. Fizikanı yalnız 601 abituriyent seçib və həmin 601-dən 31 %-i kəsilib. Qəbul olanlar da məktəbin deyil, repetitorun sayəsində qəbul olur. Repetitorlar olmasaydı daha da pis nəticələrimiz olardı. Amma dəqiq və təbiət elmlərində bizim məktəb şagirdləri, abituriyentlər, tələbələr tamamilə hazırlıqsızdırlar.

**– Qəbul imtahanlarının dəyişdirilməsinin bu prosesi düzəldə biləcək hansı metodunu nəzərdə tutursunuz?**

– Qəbul imtahanlarının mövcud sistemi, maliyyələşdirmə sistemi, universitetlərin seçilmiş fənlər sistemi dəqiq və təbiət fənlərinə istiqamət vermir. Yalnız və yalnız gürcü və ingilis dili fənləri əsasında tələbə olurlar. Bu isə həqiqətən acınacaqlıdır. Dəqiq və təbiət fənləri biliyi olmadan təhsil sistemini inkişaf etdirmək mümkün deyil. Gürcü dili və ədəbiyyatına əsas tələb varsa bu, valideynlər, şagirdlər, məktəblər üçün əsas istiqamətə çevrilir, ona görə də digər fənlərdə acınacaqlı vəziyyətdir.

Mən magistrantlara və doktorantlara dərs keçirəm, hətta bakalavr üçün də tamamilə hazırlıqsız olan tələbələr magistraturaya da gəlirlər. Lektorlardan bakalavra hansı səviyyəli tələbələrin gəldiyini soruşun – heç bir riyazi bacarıqları olmur.

Mənim həmkarlarımdan biri yazırdı ki, üçüncü kursun heç bir tələbəsi 90-nın 30 %-ni hesablaya bilmədi. Elementar olaraq ümumi təhsilin bir hissəsi olan riyazi baza bilikləri də yoxdur. Heç olmasa araşdırma bacarığı və müxtəlif məsələlərin kəmiyyət analizini etsinlər. Abituriyentlərin əksəriyyətinin məhz gürcü dili və ingilis dilindən orta səviyyədən yuxarı və yüksək nəticələri var. Hər iki fəndən kəsilənlərin göstəricisi də aşağı – 4 %-dir.

Gürcü və ingilis dili ali təhsil müəssisəsinə qəbul olmaq üçün çox mühümdür. Amma bu fənlərdə minimal kompetensiyanı müəyyən etməliyik. Həmin kompetensiyadan kənar insan ali təhsil almamalıdır. Ona görə bu fənlər üzrə sertifikat imtahanlarının olması kifayət qədər uyğundur. Bu, nəzərdə tutur ki, bu fənlərdə abituriyentləri bir-biri ilə yarışdırmayaq, hamının tələbə ola bilmək üçün bilməli olduğu minimumu müəyyən edək. Bu minimum bugünkü 15 və 20 %-lik deyil, 50 % keçidlər olmalıdır. Qrantlar qazanmaq üçün isə fakültələr fənn seçməlidir, abituriyentlər həmin fənlərdə minimum kompetensiyanı təsdiq etməlidirlər.

Qabiliyyət imtahanımız olmadığına görə riyaziyyatdan məcburi imtahanı hamı verməlidir. Əksər hallarda tibb fakültələrinin də hər iki fənnə – kimya və biologiyaya tələbi yoxdur. Əksər hallarda maliyyə proqramları riyaziyyatı məcburi fənn olaraq qeyd etmirlər və bu fənn üzrə elementar bilgisi olmayan abituriyenti qəbul edirlər.

Mövcud imtahan sistemi məktəbi birbaşa öldürür. Uzun zamandır bu barədə danışırlar, amma heç bir hökumət və təhsil naziri cəsarət edib bunu həyata keçirə bilmədi. Ancaq bütün nazirlər bu dəyişiklikdən danışırdı. Batiaşvilinin, Çxenkelinin vaxtında söhbət gedirdi, amma həyata keçirilmədi.

Qəbul imtahanlarında yaxşı nəticə əldə edənlər sonradan məhz yaxşı tələbələr olmurlar. Buna səbəb şagirdə keyfiyyətli təhsil verə bilməyən formal ümumi təhsil sistemimizin olmasıdır. Amma elə hesab olunur ki, keyfiyyətli təhsil verir. Belə çıxır ki, əksəriyyət formal olaraq təhsil və diplom alır. Bütün bu proseslər bir-birinə bağlıdır və yekun nəticədə onu əldə edirik ki, guya ixtisasdan kənar ali təhsili olan şəxslərimiz var. Qəbul imtahanları sistemi məktəbi iqnor edən və repetirorların yanında hazırlığa üstünlük verən olmamalıdır. Bu gün sistemimiz məhz budur.

**– İctimaiyyətin bir qismi məktəb rolunun gücləndirilməsi üçün repetitorlar institutunun ləğv edilməsi haqqında da danışır?**

– Repetitorlar institutunun ləğv edilməsi məqsəd olmamalıdır. Əgər bilgi çatışmazlığı varsa, həmin çatışmazlıqların aradan qaldırılmasını mövcud tələblərdən irəli gələrək edirlər. Repetitorlar institutu yenə də mövcud olacaq. Ən yaxşı ümumtəhsil sistemimiz olsa da belə mövcud olacaq. Hansısa valideynin əlavə xidmətlər almaq və pul ödəmək istəyi olacaq. Repetirorlara qarşı mübarizə aparmamalıyıq, məktəbi və qəbul imtahanları sistemində onun rolunu necə gücləndirəcəyimiz haqda danışmalıyıq. Yalnız repetitorlar qəbul imtahanı funksiyasını üzərinə götürməməlidir.

**– Tez-tez eşidirik ki, təhsil mütəxəssisləri profil təhsilə keçməyi tələb edirlər. Sizin nəzəriyyəniz bu fikri inkar edirmi?**

– Profil təhsil müəyyən fənlərə istiqamətlənə bilər. Ancaq bu o demək deyil ki, əgər insan humanitar elmlərə istiqamətlənibsə, onun bütün humanitarlara lazım olan riyazi baza bilikləri olmamalıdır. Riyazi profili kim seçərsə o, bu fənn üzrə yalnız bizim tədris planının tələb etdiklərini deyil, daha yüksək kompetensiayları inkişaf etdirməlidir.

Mənim övladımın təhsil aldığı Amerika Birləşmiş Ştatlarında şagirdlərin bis qismi kompetensiyanın riyaziyyat üzrə cəbr 2 səviyyəsində olduğu məktəbi bitirir. Şagirdlərin digər qismi isə ali təhsil müəssisəsində bizdə tədris olunan kompetensiyaları inkişaf etdirirlər. Cəbr 2 səviyyəsi bütün şagirdlərin öhdəliyidir. Amma kimin profili riyaziyyatdır – çox kompetensiya təsdiq etməlidir. Humanitar elmlərdə də belədir və profili öyrənmək o demək deyil ki, humanitarlar riyaziyyatı ümumiyyətlə bilməməlidirlər və ya riyaziyyatçılar oxu-yazını bilməlidir, gürcü və ya ingilis dili kompetensiyaları olmamalıdır.

Tələbələrin sayına bağlanmış mövcud maliyyələşdirmə sistemi universitetləri daha çox tələbə qəbuluna və tələbləri sadələşdirməyə istiqamətlənməyə məcbur edir ki, daha çox gəliri olsun.

Bu isə lektorların hazırlıqsız tələbələrə görə şikayət etməsinə səbəb olur. Həmin hazırlıqsız tələbələr universiteti bitirə bilirlər. Çünki yenə eyni siyasətləri var – təhsil haqqı ödəyən tələbələri maksimum dərəcədə saxlamaq. Ona görə də qəbul imtahanları sistemi maliyyələşdirmə sistemi ilə birlikdə müzakirə olunmalıdır.

**– Uzun zamandır yeni maliyyələşdirmə sistemindən də danışırlar, ancaq hələ də nə etmək istədikləri müəyyən deyil...**

– Bəli, maliyyələşdirmə məsələsi artıq 10 ildir həll olunmur. Yeni modelin müzakirəsi aparılır. İndi 2024-cü ildən pilot olaraq müəyyən modelin gətiriləcəyindən söhbət açılır və sonra həmin model tətbiq olunacaq. Ancaq konkret olaraq hansı modeldən söhbət getdiyini və bunun proseslərə hansı təsir göstərəcəyi hələ məlum deyil.

*Mənbə: "etaloni.ge".*
*Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# GÖZƏLLİK QURBAN TƏLƏB EDİR VƏ YA PSİXOLOJİ ZƏRBƏ



Çox önəmli və dəbdə olan bir mövzudan yazmaq istədim. Başlanğıcını bioloq kimi elmi dəlillərlə başlayım.

Təbiətdə həyatımıza çox bənzəmələr var, çox təəssüf ki, ibrət götürmürük. Hamımızın hər gün gördüyümüz ağaclar təbiət qanununa uyğun olaraq hər il bir illik həlqələr qədər böyüyür. Həlqələrin sayı ağacların yaşını göstərir. Heç vaxt təzə fidan yaşlı ağacı xatırlatmır, yaşlı ağac da fidanı. Heyvanlarda da eynən. Hətta yaş dərəcəsinə görə adlandırdığımız adları var (çəpiş, quzu, beçə, fərə və s.).

Bir naşükürləşmiş insan övladıdır ki, hər sahədə təbiət qanunlarını nəinki pozur, hətta dəyişməyə çalışır – fəsadın dərinliyini anlamadan...

Əgər şüurumuz varsa zənginik. Zənginliyimizin bəhrəsini qiymətləndirmədən, sözün həqiqi mənasında, küyə gedirik. Mən ətrafdakı qadınların şüursuz şəkildə bəhsəbəhslə arıqlamaq missiyasını qavraya bilmirəm. Bəli, arıq olmaq yox, arıqlamaq.

Məsələn, mən yaşıma görə bir az fərqli görünə bilərəm – 3-5, uzağı 10 yaş, daha 20, 30 yaş fərqiylə görünmərəm axı. Görünsəm belə əcayib olar. Yaş artdıqca orqanizmin hüceyrələri belə zamanla fərqlənir – cizgilərdən tutmuş baxışlara qədər. Dəridəki təravətdən saçlara, dırnaqlara qədər nəinki forma, hətta tərkibi belə dəyişir (qatılıq səviyyəsində). Bu dəyişiklik orqanizmdə özünü göstərir. Ağıllı sistem o dəyişikliyi gizlətmək üçün yaş artdıqca çəkidə artım yaradır ki, fərqi müsbətə doğru düz mütənasib etsin. Solğun dəri, qırışlar, dəridəki piqmentləşmə – dəri ləkələri dərini dartmaqla, kökəlməklə gizlədir. Əlbəttə, bu, birdən artmır, tədricən və yerində baş verir. Əks halda, insan yaşlaşdıqca dəri kəskin qırışar, büzüşər və getgedə çirkinləşərdi. Deməli, təbiət bilir neyləmək lazımdır.

Amma imkan verirlərmi ki, təbiət öz funksiyasını yerinə yetirə. Hə, bilirəm, oxuyan deyəcək ki, bəlkə sən kökəlməyə meyilli adam deyilsən, biz suyla da kökəlirik. Başa düşürəm, var belə orqanizmlər, amma heç niyəsini düşündünüzmü? – Yox, vallah yox!

Hamı səbəbi düşünmədən nəticənin ləğvinə çalışır – müxtəlif pəhriz formaları ilə. Bu da, təbii ki, müvəqqəti çəki dəyişmə və ya istənilməyən nəticəyə gətirir. Axı siz orqanizmin gedişatını pozursunuz. Yüksək kaloriyə öyrənmiş bədən birdən zülaldan imtina edir. İmtina – birinci zərbə. Genetik olaraq orqanizmin irsi tələbatı var, üzdə istəməsə də şüuraltı olaraq orqanizm tələb edir, özü psixoloji olaraq özünü inandırır ki, istəmir. Bu da ikinci zərbə.

Bir məclisdə ətrafındakı insanlar əylənir, yeyir, deyir-gülür, pəhrizli xanım isə özünü aldada-aldada ətrafdakı insanlara qarşı da aqressiv olur. İstəmədən kimisə acılayır, kəskin olur, əlbəttə, istəmədən, psixoloji olaraq gərgindir axı, tələbatı var, yemək istəyir.

İrsi şəcərə olaraq yeddi nəsil kababı iştahla yeyən bir gen, sahibinin kahı salatı ilə onu aldatmasına necə dözər?! Dözmür. Boğulan tələbatını əsəb gərginliyi ilə çıxarır. Pəhrizə oturan xanımla süfrə arxasında oturmamaq, "nəfsin günahına batmamaq" üçün ondan uzaqlaşanlar isə üçüncü zərbəni vurur.

Birində yaxşı alınan pəhriz menyusu digərində mütləq fərqli olacaq, axı fərqli tələbatlıdırlar, nəticə yeni xəstəliklərə yol açır (tanıdığımız məşhurlardan nə qədər adam saymaq olar).

İndi keçək nəticəni yaradan səbəblərə. Məişət texnologiyasının inkişafı insanı fiziki əməkdən daha da uzaqlaşdırır. Yenilikləri çox gözəl qarşılayırıq. Hər yeniliyin gəlişi ilə bizə yeni xəstəliklər gətirdiyini heç düşünmədik – eləmi?

Fizikada mexanikanın bir qızıl qaydası var. Cisim işdə qazandığını məsafədə itirir. Fiziologiyaya tətbiq etsək təxmini belə olar: orqanizm qidadan aldığı enerjini (kalorini) fiziki işdə itirir. Nəticədə fiziki işlə məşğul olan adam istədiyi qədər ürəyi istəyəni yeyir və lazım olan tələbatı orqanizm götürür, qalanı isə fiziki iş, hərəkət nəticəsində parçalanır və enerji – istilik, su, buxar şəklində orqanizmdən çıxır. Beləliklə, qidadan alınan ehtiyat enerjisi piy halında orqanizmdə yığılıb qalmır. Heç bir fəsad da vermir (kökəlmə olmur).

Qadınlar paltaryuyan maşınları əvəzsiz besab edirlər, amma əllə paltar yuduqları zaman itirdikləri kalorini və hərəkət edən oynaqların necə sevindiyini bilmirlər yəqin. Həmçinin ət çəkəndə, ev süpürəndə, piyada yol gedəndə və sair...

Bəli, texnoloji yeniliklər sağlamlığa çox böyük zərbələr vurub. Düymələrlə iş planımızı qurarkən sağlığımızın fərqində deyilik. Səhər oyan, düyməni bas çay qaynayır... Yalnız süfrəni açıb-yığırsan. Qabları maşın yuyur, paltarı maşın yuyur, xəmiri yoğurur, evi süpürür və s. İş saatları da otraq və yenə texnologiya. Bax, budur nəticəyə aparan səbəb.

Dükanlarda yarımfabrikant yeməklərə, hansı ki, guya yararlığını saxlamaq üçün xüsusi qatqılar əlavə olunur; eyni zamanda ət məhsullarını məhsuldar etmək üçün hormonal preparatlarla bəslənməsi birbaşa istehlakçının orqanizminə daxil olur... İstəsək az zəhmətlə daha keyfiyyətli, ucuz və az kalorili yeməklər hazırlamaq olar.

Mən əminəm ki, insanların xəstəliklərinin 90 %-i, qadınların xəstəliklərinin səbəbi məhz hərəkətsizlik və düzgün olmayan qidalanmadır. Fiziki iş elə hərəkət deməkdir. Hərəkət bütün dərmanları əvəz edir, amma hərəkəti əvəz edən heç bir dərman yoxdur.

Düşünək, nəticə çıxaraq!

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# MƏŞHUR İŞ



Ötən saydakı yazımı davam etdirmək istəyirəm. Mövzumuz insanlığa zərər vuran asılılıqdan biri olan narkomaniya idi. İndi isə yenə eyni asılılığın başqa növündən danışmaq istəyirəm – qumar oyunlarından.

Qumar pul və ya dəyərli bir şeyi ortaya qoyaraq oynanılan oyundur. Qumar haqsız yerə başqasının malını götürmək, oğurluq etməkdir. Qumar bir fəlakətdir. Qumarda itirilən pulda uşaqların, kasıbların haqqı vardır. Qazanılan pul da nə halaldır, nə də qanuni. Qumar insanı halal qazanc əldə etməkdən yayındırıb asan gəlir yollarına yönəldir, boş xəyallar qurdurur. Qumara aludə olan insanlar cəmiyyətə faydalı olmaq, halal yolla, alın təri ilə çalışmaqdan qaçınırlar. Qumar evlərin, ailələrin dağılmasına, varlı ailələrin kasıblaşmasına, o cümlədən hörmətli şəxslərin xalq içində hörmətini itirməsinə səbəb olur. Qumar insanlarda stres, xəstəlik və əsəb gərginliyi yaradır. Çox zaman isə aludəçini bir çox yaxşı olmayan şeylər etməyə vadar edir, məsələn, qəsbçilik, oğurluq və s. – oyun üçün müəyyən miqdarda pul lazım gəldikdə hara əl atacağını bilmir və bu kimi şeylər edir.

Bu oyunun tarixi çox uzaq keçmişə dayansa da bu gün daha müasirləşmiş şəkildə oynanılır. İnternet vasitəsilə onlayn oynanılması mümkün olan bir çox kazino, qumar saytları var. Ölkəmizdə ötən ilə qədər 18 yaşını tamamlayan hər kəs sayta daxil ola bilirdi. Sonra bu yaş həddini 25-ə yüksəltdilər. Ancaq yaşı hətta 18-dən az olan gənclər, əsasən də oğlanlar bu saytlara asanlıqla daxil ola bilirlər. Yaşı çox olan insanların adı ilə və ya öz valideyninə "elə-belə şeydir" deyib valideyninin adı ilə qumar saytlarında qeydiyyatdan keçirlər. Valideynlərinin məktəb xərcliyi üçün verdiyi pulu o saytlara köçürürlər. "Bilirsənmi, dünən 5 lari yükləmişdim 40 lariyə qaldırdım; səndə nə qədər var, ver qoyaq mənimkinin üstünə, qaldıraq 100 olsun" – bu kimi sözlərlə bir-birini şirnikləndirirlər.

Bu günlərdə isə "Evoulation" adlı məşhur şirkət peyda olub. Hər kəsin qeydiyyatdan keçmək üçün sıraya durduğu, yüksək maaşlı, iş saatı az olan, heç bir ali təhsil, dil səviyyəsi istənməyən həmin iş... Bu xarici şirkətin Tbilisidə filialları var. Demək olar ki, tələbələrin çoxu universitetdən sonra orada işləyirlər. Hər il şirkət öz işçisi olan bir neçə tələbənin illik universitet ödənişini edir. Xəstəxanalarda heç bir ödəniş etmədən həkim müayinəsindən keçə bilirlər.

Bəs bu zamanda iş tapmaq ali təhsilli insanlar üçün belə bu qədər çətin olduğu halda bu nə işidir görəsən? Orada gənclər nə edirlər?

İşçilər masaüstü, planşet və smartfon oyunçularına real masalarda canlı kazino oyunları oynamağa xidmət göstərirlər. Bir sözlə, kazino oyunlarının onlayn şəkildə oynanıldığı yerdir, işçilər isə saatlarca masa arxasında əyləşib oyun kartlarını paylayırlar. Kimisi "haram puldur, oradan gələn pulu bilmirəm necə boğazımdan keçirəcəm" deyir, kimisi də "mən orada öz zəhmətimlə pul qazanıram, niyə haram olsun" deyir.

Qumardan əldə olunan qazanc birdəfəlik gəldiyi kimi birdəfəlik də gedir, o pulun bərəkəti olmur.

Asan qazanc yollarının hamısı qumardır.

Yaşadığımız yerdə faydalı iş yerlərindən çox bu kimi "iş yerləri" açılır. Qardabanidə bir dənə də olsun insanların, gənclərin səmərəli vaxt keçirəcəyi yer yoxdur. Ancaq totalizatorlar, qumarxanalar, kazino saytlarının ofisi var.

Niyə? Axı bu yolla daha çox və asan pul qazanıldığı düşünüldüyü üçünmü... Sonra da indiki gənclərin sonunun olmadığını deyirlər.

**Aytən Fətullayeva**

*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# QƏLƏM BAŞLANĞICDIR



Qələm təkcə ağ kağız üzərində iz buraxan adi vasitə deyil. Qələm bəşər tarixində mühüm rol oynamış və hələ də oynamağa davam edən qiymətli alətdir. Qələmlər təkcə yazı və ya rəsm üçün istifadə olunan alətlər deyil, həm də bir çox cəhətdən həyatımızın əvəzolunmaz hissəsidir.

Sizdən soruşsam ki, qələmin mənası nədir, sizin üçün dəyəri nədir, nə cavab verərsiniz?

Yəqin çoxları deyər ki, yazı, rəsm və s. üçün istifadə olunan müxtəlif formalı alətlərdir.

Mənim üçün isə qələm başlanğıcdır.

Çünki qələmlər çox müntəzəm istifadə olunan və həmişə qalıcı gücə malik olan bir əşyadır. Hətta deyirlər ki, qələm bəzən qılıncdan da iti və qüvvətlidir. Ona görə də qələm həmişə ən populyar və ən güclü olmuşdur. Məktəbdə, evdə, ofisdə, harada olursunuzsa olun, qələm sənəd yaratmaqda, qeydlər aparmaqda, məqalə yazmaqda və ya imtahan verməkdə hər birimiz üçün vacib əşya olmuşdur. Texnologiyanın inkişaf etməsi ilə iş tərzimiz dəyişməyə davam etsə də qələm hər zaman əvəzolunmaz olaraq qalır. Bulver-Littonun dediyi kimi: “Qələm qılıncdan daha güclüdür”.

Universitetdə keçdiyim bir kursda obyekt olaraq qələmi seçdim. Qələm mənim üçün başlanğıc idi, ona görə də qələmin maketini düzəltdim və içinə pilləkan yerləşdirdim.

Pilləkan həyatda addımlarımızı təmsil edir. Hər qərar verəndə bir addım atırıq, bəzən o addımı atmağımıza sadəcə bir qələm kifayət edər. Əgər siz hesablamalara, ölçmələrə və təhlillərə əsaslanan bir işdə işləyirsinizsə, başa düşürsünüz ki, ətrafınızda bir qələmin olması işlərin öhdəsindən gəlməyə kömək edə bilər. Əgər memarlıq və mühəndislik hesablamaları ilə maraqlanırsınızsa, karandaşlar həyatınızda mühüm rol oynayır.

İşimiz nə olursa olsun, qələmlərin təqdim etdiyi saysız-hesabsız imkanlarla hər gün qarşılaşırıq. Bəzi insanların tamaşaçı qarşısına çıxdıqları zaman əllərində adətən qələm olur. Bunun səbəbi qlossofobiyası olan insanların tamaşaçı qarşısında danışarkən stres və həyəcanla mübarizə aparmağına qələmin kömək etməsidir. Qələmlər həm də ideal korporativ hədiyyələrdir. Onlar həmçinin adınız və ya inisiallarınızla fərdi olaraq monoqramlaşdırıla bilər.

Nəticədə qələm insan həyatının vacib elementinə çevrilib. Ünsiyyətdən təhsilə, sənətdən biznesə qədər bir çox sahədə bizimlə birlikdədir. Qələm düşüncələrimizi və hisslərimizi ifadə etmək üçün güclü bir yol təqdim edir və buna görə də həyatımızın ayrılmaz hissəsidir.

Sonda demək istəyirəm ki, qələmsiz dünyanı təsəvvür etməyə çalışın. Görəcəksiniz ki, qələmin, əslində, bizim həyatımızda çox böyük rolu vardır. Bütün həyatımız əslində bir qələmlə və pilləkanları qalxmaqla başlayır. “Dünyada iki böyük qüvvə var: biri qılınc, digəri qələmdir; lakin qılınc qüvvəsi sonda qələm gücünə məğlub olur” (Napoleon Bonapart).

**Nərgiz Bağırlı**



# RƏFDƏ TOZLANAN KİTABLAR

Çoxlarımız məktəb həyatından bu günə kimi bir çox kitablar oxumuşuq. Kitablar bizim bilik mənbəyimizdir. Bu kitablar bizim elm öyrənməyə can atdığımızı, istəklərimizi təmin edir. Bildiyimiz kimi, hər növdə kitablar var: uşaqlar üçün nağıl kitabları, bədii kitablar, roman kitabları...

Bəzilərimiz ali təhsilini bitirdikdən sonra da oxumağa davam edir. Bəzilərimiz isə əksinə – kitabı oxumaq üçün deyil, rəfdə, otağımız gözəl görünsün deyə alırıq. Düzdür, hər bir kitabın özü ayrı bir gözəllikdir. Amma o kitabları oxusaq daha yaxşı olmazmı. Mənə kitabı rəflərdə saxlamaq deyil, onları oxumaq, oxuduqca anlamaq, yazıçının bizə çatdırmaq istədiyi, məqsədinin nə olduğu daha maraqlı gəlir. Dostlarım arasında mənimlə eyni fikirdə olanlar da var, olmayanlar da. Dostlarımla bunun mübahisəsini çox etmişik.

Belə ki, bir gün oturub kitab oxuyurdum. Ən yaxın rəfiqəm bizə gəlmişdi. Onun da otağında bir çox yazıçıların, şairlərin ayrı-ayrı kitabları rəfdə dururdu. Mən elə düşünürdüm ki, o heç olmasa o kitabların yarısını oxuyub bitirib. Amma elə deyilmiş. Mənə yaxınlaşıb dedi: “Nə kitabı oxuyursan? Gəl gedək bir az gəzək”. Mən onun verdiyi Miraç Çağrı Aktaşın “Sən on yeddi yaşımsan” kitabını oxuduğumu dedim: “Maraqlı kitabdır. Sən çoxdan oxumuş olarsan?”

Rəfiqəm: “Yox, oxumamışam. Mən kitab oxumağı sevmirəm”.

Mən: “Əgər oxumuyacaqdınsa bəs o qədər kitabı niyə alıb yığırsan rəfə?”

Rəfiqəm: “Eh, mənim hövsələm çatmır oxumağa. Kitabların rəfdə elə modern düzülməsi otağımı daha gözəl göstərir. Mən kitabların heç birini oxumamışam, amma görən hər kəs sənin kimi düşünür, elə bilirlər ki, hamısını oxumuşam...”

Söhbətimiz belə davam etdi. O, elə hesab edir ki, biz kitabı başqaları üçün və göstəriş üçün oxuyuruq. Onun üçün kitablar məhz suvenir kimi imiş. Bir insanın o qədər kitabları olsun, amma birini də oxumasın... Qəribə gəlir. Əlimizə bir vərəq də keçsə açıb baxırıq ki, nə yazılıb. Amma ona o qədər kitab heç maraqlı gəlməyib ki, kim yazıb, nə üçün yazıb, məqsədi nədir...

Sosial şəbəkədə oxumuşdum: “Sən kitabı oxuyanlardansanmı, yoxsa rəfdə tozlandıranlardanmı?”

Bəli, mən oxuyanlardanam. Mənim üçün kitab “dekorativ bitki” deyil. Əlbəttə, hər birimiz kitablarımızı rəfdə saxlayırıq, amma biri var oxuyub saxlayasan, biri də var, oxumayasan, otağa gözəllik versin deyə düzəsən rəfə.

Kitablar vasitəsilə biz çox şeyi öyrənirik. Məsələn, niyə gecə gündüzlə əvəzlənir? İlk insan nə vaxt yaranıb? Bizim keçmişimizdə nə baş verib?.. Bu sualların hər birinə indi asanlıqla sosial şəbəkələr vasitəsilə də cavab tapmaq olur. Amma əvvəllər sosial şəbəkə yox idi.

Bəlkə indi bəzilərimiz üçün kitablar maraqlı deyil. Amma sosial şəbəkələrdən əvvəl kitablar var idi. Hər bir insan bir kitabın sonuna çatdıqda o xoşbəxtliyi dadmalıdır. Səməd Vurğunun da dediyi kimi: “Kitabsız bir ömrün nə mənası var”.

**Validə Fətullayeva**

*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

"Aşıq Cünun buna bir leylacı nəzər saldı. Baxdı ki, gözəl, nə gözəl... Tellər qara, xallar qara, qaşlar qara, saçlar qara, dişlər ağappaq mirvari kimi, dodaqlar yaqutun kənarı kimi, gözlər elədi ki, eşq əhlinə öldürrəm deyir. Gör qız nə qədər gözəl idi ki, Cünun bir baxımda ağlı sərdən verib, durdu tamaşa eləməyə" (Bax: "Koroğlu", səh. 357; "ქოროღლი", səh. 380). "Məhbub xanım gözəllikdə elə idi ki, elə bil, qüdrətin yetmiş iki qələmindən yetmiş iki rəng alıb bəzənmişdi. Ağılda, kamalda da Əflatuna loğmanlıq edərdi. Loğmana əflatunluq" (Bax: "Koroğlu", səh. 358; "ქოროღლი", səh. 381). Bu dəfə xanımın gözəlliyini vermək üçün divan ədəbiyyatının müqayisə ünsürləri gətirilib, lakin Məhbub xanım cürətləndiyi anda daha təəssüratoyadıcıdır: "Birdən onun qaşları çatıldı. Amma çatıldı, nə çatıldı... Vallah, demə görməmişəm, elə bil ki, iki dənə şahmar ilan quyruğunu qaldırıb qara gözlərin üstünə yatdı..." (Bax: "Koroğlu", səh. 365; "ქოროღლი", səh. 389). Gətirilən cüzi cizgi də bizi əmin edir ki, dastanı söyləyənin insanın daxili əhval-ruhiyyəsini səmərəli şəkildə vermək, gözlənilməzliklə müqayisə olunan, ən başlıcası, fəaliyyətdə olan qəhrəmanın üzü ilə və mimikası ilə hansı mənəvi və daxili coşqunluğa məruz qaldığını oxucuya əmin etmək qabiliyyətinə malikdir. Qısası, emosiyalı-estetik kod yüksək istedadla ekstramətn səviyyəsində özünü büruzə verir.

Daha bir cizgini gətirirəm ki, bununla da iki aşiqin qarşılıqlı gizli istəyi aşkarlanır: "Koroğlu dönüb Ayvazın baxdığı tərəfə baxanda nə gördü? Gördü Hürü xanım qulaş saçları töküb gərdəninə, boynunu qoyub çiyninə, elə baxır, elə baxır ki, elə bil bir yaralı ceyrandı. Koroğlu məsələni başa düşdü" (Bax: "Koroğlu", səh. 567; "ქოროღლი", səh. 599).

Koroğlu isə bu cür baxışın nə olduğunu anlayır. Ümumiyyətlə, oxucu bunu az-çox dərk edir. Onun fikrincə, qəlbi dağlı, qəmə-qüssəyə batmış, aşiq olmuş qızın baxışıdır. Lakin ekstramətn səviyyəsində "yaralı ceyranın baxışı" ifadəsi metafora xarakterini daşıyır və onun dərk edilməsi müxtəlif cürdür, dürlü-dürlüdür ki, bu da bu obrazın anlaşılmasının yeknəsəqliyi və bir növlülüyünü açıqlayır. Məhz elə bu qavrayışın müxtəlifliyi kontekstin bədiiliyini şərtləndirir, estetik məkanı zənginləşdirir və əlahiddə fikirlə onu doldurur.

Təhlil olunan epos Çənlibel dəlilərinin portretləri ilə də zəngindir ki, bu da "Koroğlu"nun bədii kətanında həddindən artıq təsvir edilmişdir. Bu portretləri gətirməklə oxucunu bir daha yormayacağam, lakin, hər halda, gənc Eyvazın simasının Cünun sayağı təsvirini xatırlamaq istəyirəm: "Aşıq Cünun baxdı ki, məclisin lap başında bir oğlan durdu ayağa, bir oğlan durdu ayağa ki, heç Yusif onun əlinə su da tökməyə layiq deyil. Bu elə bir oğlandı ki, boy, buxun, qaş, göz, elə bil ki, qüdrətin qələmi ilə çəkilmiş bir şəkildi durub" (Bax: "Koroğlu", səh. 178; "ქოროღლი", səh. 205). Aydındır ki, Eyvazın zahiri görünüşünün bu cür hiperbolikləşdirilməsi yalnız bir fikrin ifadə olunmasına xidmət edir: heç kimin onu övladlığa götürülməsinə, elə götürək, şan-şöhrətli Koroğlunun, çəkingən Nigar xanımın qulp qoymadığı oğlandır.

Bu dəfə məni ümumxalq tərəfindən tanınan şan-şöhrətli, haqq-ədalət uğrunda mübarizə aparan Koroğluya hansı təbiətə malik dəlinin layiq olduğu daha çox maraqlandırır. Qul ərəbi sınaqdan çıxaranda bu barədə özü bizə söhbət açır. Onun fikrincə, saz, söz, səs insana təsir etməsə o, həqiqətən namərddir və onu sınağa çəkən Koroğlu sazda oxuyanda onun mahnısı qula tamamilə təsir etmədi, Koroğlu ona belə müraciət edir: "Oğul, mənim ki, nə sazım, nə sözüm, nə səsim sənə əsər eləmədi, səndən Koroğlu dəlisi olmaz. Amma mən namərd deyiləm. Ətəyimdən tutan əli kəsmərəm. Qal, ye, iç, dolan!" (Bax: "Koroğlu", səh. 409; "ქოროღლი", səh. 430).

Gətirilən epizod hərtərəfli olaraq diqqətə layiqdir. Birincisi, Koroğlunun alicənablığı və mərhəmətliliyi açıq şəkildə özünü büruzə verir. İkincisi də, onun fikrincə, musiqini, mahnını və sözü anlamayan kəs nakişi və namərddir, ən başlıcası, Koroğlu üçün dəlilik təkcə fiziki cəhətdən güc və döyüş sənəti deyildir. Dəli, hər şeydən öncə, poeziyanı, musiqini qavraya bilən, canı yanan, həssas insan olmalıdır. Və yaxud igid, hər şeydən öncə, estet olmalıdır və sonra igid və igidlik əxlaq məcəlləsinin müdafiəçisi olmalıdır.

Dəlilər özlərinin davranışlarının və döyüş qaydalarının möhkəm müdafiəçiləridirlər. Onlar üçün Koroğlunun sözü qanundur və onu yerinə yetirməmək xəyanətə bərabərdir. Onlardan bir növ istisnalığı Gürcüoğlu təşkil edir. O, qanuna tabe olan dəlilərə nisbətən daha çox dəli-divanə və aşiq tipini bizə xatırladır. O, elə ilk baxışdanca dəlicəsinə "şam kimi şölə verən, çıraq kimi işıq saçan, elə bil ki, zalımın qızı büllurdan yaranan" Ruqiyyə xanımı sevdi. Onu görən Gürcüoğlu dedi:

"– Dəmirçioğlu, Koroğluya məndən salam yetirərsən. Deyərsən ki, Gürcüoğlu Məmməd oldu eşq dəlisi! Day ondan Koroğlu dəlisi çıxmaz. Məndən ümidini üzsün. Mən dönüb oluram Məcnun" (Bax: "Koroğlu", səh. 457; "ქოროღლი", səh. 474).

Lakin elə həmin Gürcüoğlu qardaşlığı və qarşılıqlı çiyin-çiyinə durmağı yaxşı mənimsəyib. Bu, Dəmirçioğlunun düşmən qoşununu görəndə yarısını öz üzərinə götürdüyü, yarısını isə vuruşmaq üçün Tanrıtanımaz və Gürcüoğlunun öhdəsinə buraxdığı zaman aydın görünür.

"– Dəmirçioğlu, orasını düz deyirsən ki, "söhbətdimi, sazdımı ola"... çoxdandı ki, dava eləməmişik. Bu dava bizim üçün elə söhbət-saz kimi bir şey olacaq. Amma yarı özünə götürüb, yarı bizə verməkdə yaxşı eləmirsən. Bu yoldaşlıq olmadı. Sən bizim ikimizi bir adam, özünü də bir adam hesab eləyirsən. İndi ki, belə oldu, mən gedirəm" (Bax: "Koroğlu", səh. 453; "ქოროღლი", səh. 470).

Şəksiz, dəlilərin dostluq və yaxud igidlik məcəlləsinin başlıca prinsipi döyüş və çətinlik zamanı qarşılıqlı həmrəylik, acıya, qəm-qüssəyə şərik olmaq, dostu darda qoymamaqdır, xeyirə və şərə birgə və qardaşcasına şərik olmaqdır.

İndi ayrı-ayrı dəlilərin özünəməxsus xarakteri barədə söhbəti bir daha davam etdirməyəcəyəm. Çünki demək mümkündür ki, onların hamısı bir-birindən insani təbiəti ilə, xarakteri ilə fərqlənir, bu da tamamilə adi hal olaraq anlaşılır. Lakin bu dəfə onları bir-birindən ayıran təbiət-xarakter ilə deyil, onları bir-birinə birləşdirən ümumi inanc maraqlandırır. Və bu qəhrəmanlıq eposunun əsasını təşkil edən əxlaqi-estetik model maraqlandırır. Bu modelin yaradıcısı konkret halda təkcə əsərdə verilən dastanların süjetlərinin birləşdirici sima, daha doğrusu, fəaliyyətlərin dairəvi inkişaf mərkəzi Koroğludur. Belə ki, buradan başlayır və mənəvi, istərsə də fiziki ehtiraslar; istər bu tragizm olsun, istərsə də xoşbəxtliyin oyadıcısı olsun harasa istiqamətlənir, eləcə də bütün bu gözəl qəhrəmanlıq eposunun hərəkətverici enerjisi bütün bu əsərin kətanını əxlaqi-estetik iplərlə qəşəngcə naxışlayır. Buna görə də bütün diqqəti onun üzərinə yönətməliyik.

Hər şeydən öncə qeyd etməliyəm ki, Koroğlu əfsanəvi şəxsiyyətdir ki, onun da Koroğluya çevrilməsini mistik sirr və kosmik qüvvələr şərtləndirir: Doğrudur, o adi, halbuki təcrübəli ilxıçının oğlu Rövşən idi, lakin onun taleyini yönləndirən dəryadan çıxan iki ayğır oldu ki, bunların da iki madyanla yaxınlıq etmələri nəticəsində iki daylaq, sonra iki sirli şəkildə gələn atlar: Qırat və Dürat dünyaya gəldi. Elə burada vurğulayacağam ki, bu atlar, ələlxüsus isə Qırat, böyük Koroğlunun yenilməzliyində mühüm funksiya yerinə yetirir. Bir sözlə, Koroğlu Qırat yanında olanda yenilməzdir. Koroğlunun yenilməzliyini onun uşaqlıq vaxtları tapdığı qara daşdan atasının ustaya düzəltdirdiyi qılınc bərkidir. Bu, "misri qılıncdır", magik qüvvə daşıyıcısıdır. Halbuki Koroğlunun qəribə yenilməzliyinin əsas səbəbi, hər halda, Qoşabulağın iki axının yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduzun toqquşduğu, bu toqquşma zamanı Qoşabulağa tökülən köpüyündədir. Atanın tövsiyəsi ilə köpükdən bir qab doldurub başına tökür. Bu isə onun misilsiz igidliyini əmələ gətirir. Onu içməklə isə misli olmayan aşıq və elə səsə malik olur ki, onun səsinə, nərəsinə aslanlar təşvişə düşər, quş uçsa qanad salar, qatır keçsə dırnaq salar. Bax, bu, Koroğlunu əfsanəvi Koroğluya və yaxud yenilməz qəhrəmana, igidə çevirən mistik qüvvədir. Qısası, bizim qəhrəman ilahi istedadla, qüvvə ilə, məharəti ilə mübarək olub. Əgər Koroğlunun savaşlarını və sərgüzəştlərini xatırlasaq, Qırat həmişə onun yanındadır, qılınc və sazı əldən qoymur. Alı kişinin ölümündən öncə dediyi vəsiyyət elə bundan xəbər verir ki, bunu da öncə vermişəm və indi bir daha təkrar etməyəcəyəm.

Lakin bu dəfə mənim üçün o diqqətə layiqdir ki, Koroğluya yenilməz qüvvə ilə yanaşı qoşma qoşmaq, mahnı oxumaq istedadı da verimişdir, bu da onu dolğun bir varlığa (əsərə) çevirir.

Bu məsələ ilə əlaqədar artıq iki dəfə ifadə etdim və yenə də təkrar edirəm ki, ümumiyyətlə, o cümlədən təhlil olunan əsərə uyğun olaraq insanın dolğunluğu, fiziki bünyəsi, qüvvəsi, eləcə də onun mənəvi zənginliyi və ağıl yetkinliyi özünü büruzə verir. İlk göstərici onu yenilməz döyüşçüyə və döyüşün yenilməz ustasına çevirir. İkinci isə, onun daxili, mənəvi, istərsə də əxlaqi-estetik inancının zənginliyindən xəbər verir. Nəhayət, qılıncını münasib zamanda çalan, mahnı, poeziya, musiqi və yaratmaq, qavramaq istedadına malik olan təkmilləşmiş igiddir. Bunu ona görə dəfələrlə təkrar etdim ki, insanın dolğunluq obrazı və onun düşüncəsi məhz elə Koroğlunun bədii aləminin, istərsə də mənəvi məbədinin açarıdır.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR
2023-CÜ İL
№ 018 (189)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QARDABANİDƏ TƏHSİL VƏ İNTEQRASİYA MƏRKƏZİNİN AŞILIŞI OLUB



Qardabanidə gənclərin asudə vaxtının səmərəli keçirilməsi və təhsilə marağının artırılmasına yardım məqsədilə yeni Təhsil və İnteqrasiya Mərkəzi fəaliyyətə başlayıb.

Mərkəzin sentyabrın 20-də baş tutan açılışında Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan mərkəzin icraçı direktoru Çiçək Hüseynova mərkəzin gələcək planları barədə iştirakçılara ətraflı məlumat verib. Bildirib ki, əsas məqsəd gənclərin təhsilə daha fəal qoşulmalarına yardım göstərməkdir.

Mərkəzin həmtəsisçisi Nərgiz Bağırlı Qardabani Təhsil və İnteqrasiya Mərkəzinin soydaşlarımızın Azərbaycan, gürcü və ingilis dilləri, milli rəqs və mədəniyyətimizin digər qollarını öyrənmələri üçün yaradılmış təhsil mərkəzi olduğunu bildirib.

Mərkəz bütün səviyyələrdə Azərbaycan, ingilis və gürcü dilləri üzrə dərslər təklif edəcək. Başlanğıcdan qabaqcıl səviyyələrə qədər müxtəlif kurslar və dil bacarıqlarını təkmilləşdirmək üçün proqramlar tətbiq olunacaq.

“Biz mədəni tədbirlər və dil mübadiləsi proqramları da təşkil edəcəyik. Gələcək planlarımız olduqca maraqlıdır. Mərkəzi daha çox dil seçimləri ilə genişləndirməyi hədəfləyirik. Biz tələbələrə daha çox dil öyrənmək imkanı verməklə mədəni müxtəlifliyi təşviq edəcəyik. Bundan əlavə, biz kursun sonunda dil sertifikatları və təşəkkürnamələr təqdim edəcəyik”, – deyə N.Bağırlı vurğulayıb.

## KVEMO KARTLİDƏ 1 304 EVLƏNMƏ, 651 BOŞANMA QEYDƏ ALINIB



2023-cü ilin ilk 6 ayında Gürcüstanda 10 366 nikah və 6 828 boşanma qeydə alınıb. Bu barədə Gürcüstanın Statistika Xidməti məlumat yayıb.

“Yeni Yol” “bpn.ge” saytına istinadən bildirir ki, Tbilisi, İmereti və Kvemo Kartli bölgələri evlənənlərin sayına görə öndədir. Belə ki, cari ilin ilk 6 ayı ərzində paytaxt Tbilisidə 3 057, İmeretidə 1 614, Kvemo Kartlidə isə 1 304 nikah qeydə alınıb.

Boşanmaya gəldikdə isə ən yüksək göstərici 2 332 halla yenə Tbilisinin payına düşür. İmeretidə 1 182, Sameqrelo və Zemo Svanetidə 754, Kvemo Kartlidə 651, Acara Muxtar Respublikasında 541 boşanma halı qeydə alınıb.

Həmçinin 2023-cü ilin yanvar-iyun aylarında doğulan uşaqların sayı 19 431 təşkil edib. Həmin dövrdə ölkədə 21 944 nəfər dünyasını dəyişib. 2023-cü ilin birinci yarısında təbii artım (sağlam doğulanlar və ölənlərin sayı arasında fərq) 2 513 nəfər müəyyən edilib. Təbii artımla bağlı müsbət göstərici Tbilisidə 340, Acara Muxtar Respublikasında 870 və Kvemo Kartlidə 145 nəfər qeydə alınıb.

## TÜRKİYƏ VƏ AZƏRBAYCAN GÜRCÜSTANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞLARIDIR



Bu ilin yanvar-avqust aylarında Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşları arasında birinci yerdə olub. Səkkiz ayda Türkiyənin Gürcüstanla xarici ticarət dövriyyəsi 1,9 milyard dollar olub ki, bu da Gürcüstanın ümumi ticarət dövriyyəsinin 13,9 faizini təşkil edir.

Azərbaycan isə Gürcüstanın ən böyük beş ticarət tərəfdaşından biri olub. Hesabat dövründə Gürcüstanla Azərbaycanın xarici ticarət dövriyyəsi 979,4 milyon dollar təşkil edib. Bu müddətdə Gürcüstan Azərbaycana 567, 8 milyon dollar dəyərində məhsul ixrac edib ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 34,7 faiz çoxdur.

Qeyd edək ki, Gürcüstanın xarici ticarət dövriyyəsi 2023-cü ilin yanvar-avqust aylarında ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 17 faiz artaraq 14 milyard dollar təşkil edib. Gürcüstandan geniş çeşiddə mallar ixrac olunur: mis filizləri və konsentratları, ferroərintilər, təbii üzüm şərabları, spirtli içkilər, mineral sular, avtomobillər, qızıl, qoz-fındıq və sair.

## AKAKİ SERETELİNİN AZƏRBAYCAN DİLİNDƏ “MƏNİM NƏĞMƏLƏRİM” KİTABI NƏŞR EDİLİB




Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Tərcümə Agentliyi Gürcüstan Yazıçılar Evinin qrant layihəsi çərçivəsində gürcü poeziyasının klassiki, şair Akaki Seretelinin seçmə poetik nümunələrinin toplandığı “Mənim nəğmələrim” adlı şeirlər kitabını nəşr edib.

Tərcümə Mərkəzinin yaydığı məlumatda bildirilib ki, “Akaki Seretelinin özü və sözü haqqında” adlı “Ön söz”lə açılan kitaba şairin Vətən, təbiət, həyat, ölüm, məhəbbət, eləcə də digər mövzularda qələmə aldığı “Son nəfəsdə”, “Müqəddəs Nino”, “Tərbiyəçi” poemaları, “Çal saçlar”, “Bahar”, “Sübh çağı”, “Coş, ey dəniz!”, “Arzu”, “Sirli namə”, “Yarasa”, “Xəncər” kimi şeirləri daxil edilib.

Akaki Seretelinin yaradıcılığı Azərbaycanın dövri mətbuatında yayımlansa da, kitab halında yerli oxuculara ilk dəfə təqdim edilir.

Kitabın “Ön söz”ünün, poema və şeirlərin orijinaldan tərcümə müəllifi – tanınmış şair-tərcüməçi İmir Məmmədli, redaktoru Şəfiqə Şəfadır.

## "ERA" TEATRININ “İÇİMDƏKİ HƏBSXANA" TAMAŞASININ PREMYERASI KEÇİRİLİB




Sentyabrın 17-də Tbilisidə yerləşən Akaki Xarova adına Aktyorlar Evində “ERA” teatrının “İçimdəki həbsxana” adlı tamaşasının premyerası baş tutub.

Teatrın bədii rəhbəri və rejissoru Anar Rafiqoğlunun eyniadlı pyesi əsasında hazırlanmış tamaşada Elnur Vəlizadə, Əli İlqaroğlu, Gül Cəfərova, Məryəm Əliyeva və İdris Elnuroğlu rol alıb.

Psixoloji komediya janrında hazırlanmış tamaşanın quruluşçu rejissoru Anar Rafiqoğlu bildirib ki, bu könüllü təşəbbüsün məqsədi Gürcüstandakı azərbaycanlı gənclər arasında teatra olan marağın artırılması, ana dilinin inkişafı və qorunması, teatr sənətinin inkişaf etdirilməsidir.

O, tamaşanın yaradıcı-texniki heyətin könüllü əməyi sayəsində ərsəyə gəldiyini, işıqlardan səhnə tərtibatınadək bütün işlərin təmənnasız fəaliyyət göstərən gənclərin yardımı ilə görüldüyünü deyib. Teatr qrupunun məkanı olmadığından məşqlərin aktyorların evlərində, iş yerlərində, eləcə də parklarda aparıldığını vurğulayıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.